# Yaxşı dost və yaxın tərəfdaşlar

**Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Çinə işgüzar səfəri, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammitində iştirakı dövlətimizin sürətlə artan beynəlxalq nüfuzunun bariz sübutudur. Bu geosiyasi uğurun əsası hələ 1993-cü ildə bütün dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı faydalı münasibətlərin qurulmasını xarici siyasətin əsas vəzifəsi kimi müəyyən edən Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Bu əlaqələr Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirərək, iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafına təkan verdi.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev balanslaşdırılmış və çoxşaxəli xarici siyasət yeritməklə bu xətti davam etdirir ki, bu da həm Azərbaycan-ŞƏT əlaqələrinin inkişafında, həm də Azərbaycan-Çin münasibətlərinin möhkəmlənməsində özünü göstərir: "Əlamətdar haldır ki, ŞƏT-in Astanada keçirilmiş əvvəlki sammitində iki ölkə arasında strateji tərəfdaşlığın yaradılmasına dair Birgə Bəyannamə qəbul edildi. Eyni zamanda Si Cinpin İlham Əliyevi Çinə dövlət səfərinə və hazırkı sammitdə iştirak etməyə dəvət etdi. ŞƏT-in miqyası heyranedicidir: təşkilat dünya əhalisinin 40 faizinin yaşadığı və qlobal ÜDM-in 25 faizinin istehsal olunduğu Avrasiya ərazisinin, demək olar ki, 60 faizini əhatə edən ölkələri birləşdirir. Çinin əsas rol oynadığı budəfəki sammit təşkilatın tarixində ən geniş təmsilçiliyə malik olan yığıncağına çevrilib. Burada 20-dən çox ölkənin liderləri və 10 beynəlxalq təşkilatın rəhbərləri iştirak edir. ŞƏT özünü əməkdaşlığın təşviq edilməsi, təhlükəsizliyin, sabitliyin və birgə inkişafın qorunması üçün ciddi platforma kimi təsdiqləyib ki, bu da qlobal təlatüm və təchizat zəncirlərinin pozulması kontekstində xüsusilə vacibdir".

Azərbaycanın 2016-cı ildən ŞƏT-in dialoq tərəfdaşı statusuna malik olduğunu vurğulayan deputat deyib ki, onun təşkilat üçün əhəmiyyəti bundan da kənara çıxır. Bu, ölkənin təkcə "Qərb-Şərq" və "Şimal-Cənub" marşrutları üzrə əlverişli coğrafi mövqeyi ilə deyil, həm də onun Qoşulmama Hərəkatına sədrliyi və COP29-a evsahibliyi kimi nailiyyətləri ilə bağlıdır. Bundan əlavə, Azərbaycanın regionda liderlik rolu və beynəlxalq hüquq normalarına uyğun olaraq tarixi ədaləti bərpa edən qalib ölkə statusu tanınıb. Ölkəmizin artan nüfuzunu bu yaxınlarda Vaşinqtonda keçirilmiş üçtərəfli görüşün nəticələri təsdiqlədi, burada Bakının şərtləri, o cümlədən Cənubi Qafqazda bütün kommunikasiyaların, ilk növbədə, Zəngəzur dəhlizinin (TRIPP) açılması zərurətinin tanınması ilə bağlı razılaşmalar əldə olundu. Bu, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycanın geosiyasi rolunu gücləndirir, çünki ŞƏT-in demək olar ki, bütün iştirakçıları bu layihənin fəal üzvləridir. "Azərbaycan əsrlər əvvəl olduğu kimi, İpək yolunun mühüm halqası olaraq qalır. Onun ŞƏT-ə üzvlüyü təkcə Azərbaycanın özü üçün deyil, həm də Mərkəzi Asiya ölkələrinin Pakistanın quru yolları və dəniz limanları vasitəsilə Şərqi, Cənubi və Cənub-Şərqi Asiya bazarlarına çıxışı üçün perspektivlər açır. Bu, Azərbaycanın müasir infrastrukturla dəstəklənən güclü nəqliyyat, tranzit və logistika potensialına əsaslanan, həm bu dövlətlərlə ikitərəfli əlaqələrin dərinləşməsinə, həm də çoxtərəfli regional razılıqların reallaşmasına zəmin yaradır. Prezident İlham Əliyev ŞƏT-in Astanada keçirilmiş iclasında qeyd edib ki, Azərbaycanın sərmayələri sayəsində Bakı-Tbilisi-Qars dəmir yolunun (Orta dəhlizin bir hissəsi) ötürücülük qabiliyyəti ildə 1 milyon tondan 5 milyon tona çatdırılıb. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun rəqəmsallaşdırılması istiqamətində işlər aparılır. Həmçinin Ələt limanının yükdaşıma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona çatdırılması nəzərdə tutulur", - deyə deputat əlavə edib.

K.Bayramov bildirib ki, bu layihələr Çinlə Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin müddəaları ilə uzlaşır, burada Pekin Orta dəhlizin inkişafında fəal iştirak etməyə və Çin-Avropa yük qatarlarının Cənub dəhlizinin inkişafını sürətləndirmək, logistika zəncirlərinin təhlükəsizliyini gücləndirmək üçün Bakı və marşrut üzrə digər ölkələrlə daha sıx əməkdaşlığa hazır olduğunu bildirib. Çin, həmçinin Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlığı dərinləşdirmək istəyini dəstəkləyib və təşkilatdakı statusunu yüksəltməyə çağırıb. Əsası Ümummilli Lider Heydər Əliyevin 1994-cü ildə Çinə ilk səfəri zamanı qoyulmuş iki ölkə arasında münasibətlər beynəlxalq əhəmiyyət kəsb edir. O zaman dostluq münasibətləri, hava nəqliyyatının açılması, eləcə də elmi-texniki və mədəni əməkdaşlıq haqqında əsas sazişlər imzalanıb.

Deputat xatırladıb ki, Astanada ŞƏT sammiti çərçivəsində keçirilmiş görüşdə Si Cinpin Çin-Azərbaycan münasibətlərini səmimiyyət və qarşılıqlı etimada əsaslanan münasibətlər kimi dəyərləndirib, Pekin və Bakının yaxşı dost və yaxın tərəfdaş olduğunu vurğulayıb: "Prezident Əliyev də öz növbəsində bütün sahələrdə ikitərəfli əməkdaşlığı gücləndirmək niyyətini təsdiqləyib. 2025-ci ilin aprelində Pekinə dövlət səfəri zamanı liderlər Hərtərəfli Strateji Tərəfdaşlığın yaradılmasına dair Birgə Bəyanat imzalayıblar. Orada Bakı Çinin qlobal inkişaf və təhlükəsizlik sahələrindəki təşəbbüslərini fəal dəstəklədiyini, Pekin isə mədəniyyətlərarası və dinlərarası dialoqa yönəlmiş "Bakı Prosesi" çərçivəsində Azərbaycanın səylərini dəstəklədiyini bildirib. Prezident İlham Əliyevin sentyabrın 3-də Çində keçirilən anım tədbirlərində iştirak etməyə dəvət edilməsi İkinci Dünya müharibəsində faşizm üzərində qələbədə hər iki ölkənin rolunu vurğulayır".

O qeyd edib ki, beləliklə, Azərbaycanla ŞƏT arasında əlaqələrin inkişafı regionallaşmaya əsaslanır. Bugünkü parçalanmış dünyada regional sabitlik və təhlükəsizlik qlobal sülhün açarıdır. Mərkəzi Asiya və Azərbaycanı vahid məkan kimi nəzərə alsaq, geniş əraziləri və əhalini birləşdirən genişmiqyaslı regionallaşmadan danışmaq olar. Ona görə də perspektivlər təkcə Bakının ŞƏT-ə deyil, həm də təşkilatın özünün Azərbaycana olan dərin marağındadır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 2 sentyabr (№185).- S.8.